# Ailə insanlığın vəhdətidir

**Nəsil-əsil ziyalı "ordusu"**

Süleymanovlar ailəsini qəsəbəmizdə hamı tanıyır. Şamil və Münəvvər Süleymanovlar haqda hər kəs xoş xatirələr söylər; onların zəhmətsevər, qayğıkeş, mehriban olması, mənəvi cəhətdən zəngin bir ailə olduğunu söyləyirlər. Qohum-qonşu arasında da onlar hörmət və izzət qazanan bir ailədir. Onların 8 övladı olmuşdur: Arifə, Aminə, Yavər, İftixar, Şahin, Nəhayət, Eyyub, Afət. Övladlar halal zəhmətlə böyümüş, qarşılaşdıqları çətinliklərə rəğmən dərslərinə layiqincə yanaşmış və ali təhsil almışlar. Valideynlərinin zəhməti hədər getməmiş, hər biri də gözəl ailə qurmuş, cəmiyyətin ən yaxşı insanları kimi ailələrində də bilik və bacarıqlı, tərbiyəli övladlar böyütmüşlər. Arifə, Aminə, Yavər, İftixar müxtəlif fənlər üzrə müəllim, Şahin və Eyyub mühəndis, Nəhayət həkim, Afət isə tibb bacısı ixtisaslarına yiyələnmişlər. Şahin elmi dərəcəli mühəndis idi. Ata və ana - Şamil və Münəvvər Süleymanovlar dünyasını dəyişdikdən sonra bu ziyalı bacı-qardaşlardan Arifə və Yavər müəllimə, Şahin və Eyyub qardaşları dünyasını dəyişmişlər. Dünyasını dəyişən bu ziyalı övladlar onları tanıyanların yaddaşında həm də gözəl insan, valideyn kimi xatırlanır və onların da övladları məhz onların həyat yollarını davam etdirirlər.

**Davamiyyətli arzular**

Eyyub ailənin yeddinci övladı idi. 1961-ci ilin may ayının 14-də Qəbələnin Vəndam qəsəbəsində dünyaya göz açmışdı. Hələ uşaqlıq çağlarında həm ailədə, həm ətrafında olan insanlar tərəfindən ağıllı və dərrakəli, sakittəbiət olması ilə sevilən biri idi. Məktəb illərində də dərslərində fəallığı, intizamı, düşüncə tərzi ilə həmyaşıdlarından seçilər, müəllim kollektivi tərəfindən ən yaxşı bir şagird kimi sevilərdi. Həyatda insan yaşayışı üçün lazım olan bütün peşələrə maraq göstərər və peşələri öyrənərdi, bir sözlə çox bacarıqlı biri idi. Musiqiçi kimi, heykəltaraş kimi, mexanik, elektrik, bənna, usta, təsərrüfat işləri və maraqlı bitkilərin yetişdirilməsi onun maraq dairəsində idi. Həm də o, gözəl tar, elekrtogitara çalardı.

Orta məktəbi bitirdikdən sonra ali məktəblərə imtahan zamanı yenə fərqlənir; daha yüksək balla qəbul imtahanlarını verdiyi üçün ölkəmizdən kənarda ali təhsil almaq hüququ qazandı. O, 1978-ci ildə Qırmızı Əmək Bayraqlı Krasnodar Politexnik İnstitutuna qəbul olunur və 1983-cü ildə mühəndis-texnoloq ixtisası üzrə ali məktəbi bitirmişdir. Fərqlənmə diplomu ilə ali təhsilini başa vurduqdan sonra Eyyub vətənə və doğma elinə qayıdır. Valideynlərinin yanında, ata evinin "işığını yandırmaq" məqsədi ilə Bakıda işləmək, təhsilini davam etdirmək arzusunu qəlbinə gömdü və rayon mərkəzində o illərdə fəaliyyət göstərən Qəbələ Tütün Fermentləmə Zavodunda əmək fəaliyyətinə başladı. İllərlə işlədiyi bu müəssisədə də işi, bacarığı, intizamı ilə hörmət qazandı. Müəssisə bağlananadək bu müəssisədə mühəndis-texnoloq işlədi. Sonra isə taxtadan oyma və məişət avadanlıqlarının hazırlanması ilə məşğul oldu. Onun əl işləri çox səliqəli və keyfiyyətli idi. Bu əl işlərinə baxdıqca, onlardakı zəriflik daha çox diqqəti cəlb edir.

**Xarakterin davamçıları olurmu?**

Eyyub Süleymanov 1988-ci ilin avqust ayında elə qonşusunun qızı, yaxından tanıdığı, gözəlliyi və əsil azərbaycanlı qızlarına məxsus xarakterini bəyəndiyi Saqibə xanımla ailə qurmuşdu. O, Saqibə xanımın təhsilini də davam etdirməsinə şərait yaratmış, mehriban, anlayışlı bir ailə kimi ömür sürməyə başlamışdılar.

Bu ailədə iki övlad dünyaya göz açmış, ailənin halal zəhmətilə böyüyüb boya-başa çatmışdılar. Ailənin xanımı Saqibə müəllimə yalnız gəlin, həyat yoldaşı, ana kimi deyil, həm də öz peşəsinin vurğunu olan bir müəllimə kimi ətraf mühitdə böyük hörmət qazanmışdır. Hər bir valideynin ümdə



arzusudur ki, övladı məhz onun sinfində oxusun. İbtidai sinif müəllimi olan Saqibə müəllimənin körpələrlə davranışı, onlara özül biliklərin öyrədilməsində bacarığı, valideynlərlə ünsiyyət qurma metodu hər kəsin hörmət və sevgisinə səbəb olurdu. Bu isə Saqibə müəllimənin də böyüdüyü ailə mühitindən irəli gəlirdi. Süleymanovlar ailəsində hər kəs aid olduğu mövqedə idi. Kişi və qadın həm də yaxın dost, övladlarının da "ailə müəllimi" idilər. Məhz buna görə də hər iki valideynin övladları qarşısında hörmət və dəyəri özünəməxsus formada hədsiz idi.

Ailədə uşaqlara dərs oxumaq məcburiyyəti heç olmazdı. Valideynlərinin istək və arzuları, öyüd- nəsihətləri onlara söhbətlərindən, qayğı və nəvazişlərindən, onlara baxışlarından götürülər, dəyərləndirilərdi. Elə bunun nəticəsi idi ki, ailədə böyüyən hər iki övlad - Afət (kiçik bibi öz adını qardaşı qızına ərməğan etmişdi) və Fuad oxuduqları Vəndam qəsəbə 1 saylı orta məktəbdə bilik və intizamı ilə məktəb kollektivinin hörmətini qazanmışdı. Onu da qeyd edək ki, Vəndam qəsəbə 2 saylı orta məktəbin müəllimi olan Saqibə Süleymanova müəllimlərin sertifikasiya imtahanında topladığı bala görə Vəndam qəsəbə ibtidai sinif müəllimləri arasında birincilik qazanmışdı.

**Arzular çin olur**

Orta məktəbi başa vurduqdan sonra Afət Bakı Dövlət Universitetinin iqtisadi-nəzəriyyə fakültəsinə 630-a yaxın bal toplayaraq qəbul olunmuşdu. Elə universiteti də əlaçı tələbə olaraq Qırmızı diplomla başa vurur. 2010-cu ilin mart ayında ailə qurur. O həmçinin təhsilini davam etdirir və Azərbaycan İqtisad Universitetində magist təhsili alır. Burada da əlaçı tələbə olan Afət Süleymanova dövlət qulluğuna imtahan verərkən də yüksək nəticələr əldə edir. Afət bilirdi ki, bu fəaliyyəti ilə valideynlərinin arzularını reallaşdırır. Valideynlərinin arzusu isə ta uşaqlıqdan onun da başlıca arzusu idi...

Hazırda Afət Süleymanova dissertantdır, təhsilini davam etdirir. Həmçinin o, Azərbaycan Dillər Universitetinin Fəlsəfə və İctimai Elmlər kafedrasının müəllimidir, beynəlxalq iqtisadiyyat fənnini ingilis dilində tədris edir. Ən maraqlısı isə odur ki, o, heç vaxt başqa müəllimlərin hazırlıq kurslarından bəhrələnmir, yalnız öz üzərində çalışmaqla uğurlar əldə edir.

Ailədə də onun "uğurları" valideynlərinin tərbiyəsinin bəhrəsidir. Afət qayğıkeş ömür-gün yoldaşı, gəlin və anadır. Ətrafında olan hər kəs ona bu xüsusiyyətlərinə görə də hörmətlə yanaşır.

Fuad Süleymanovlar ailəsinin ikinci övladıdır. Savadı, davranış tərzi, bacarığı ilə seçilən Fuad Azərbaycan Texniki Universitetinin avtomatlaşdırma və informasiya texnologiyası fakültəsində təhsil almışdır. Müxtəlif kursların mü-davimidir və sertifikatlara sahibdir. Bacarıqlı dizayner, kompüter mühəndisidir. Hazırda Azərbaycan Bakıbus MMC-də sistem administratoru vəzifəsində çalışır.

Fuad Süleymanov 2021-ci ildə ailə qurmuşdur. Ailədə də öz ata-babalarından miras qalan nümunəvi insanlıq xüsusiyyətlərinə davam edir. Mədəni, ailəcanlı, nümunəvi, örnək ailəsi olması üçün çalışan biridir. Ailəsində böyüyən iki yaşlı körpəsi də məhz bu tərbiyə əsasında böyüyəcək.

Eyyub və Saqibə Süleymanovların ailəsində böyüyən övladlar nümunəvi, örnək ailə ənənəsini davam etdirirlər. Bu hər addımda hiss olunur. Övladlarının ailələrində böyüyən körpələr də - Füzuli, Damla, Narin öz soy-kökünə bağlı, əsil ailə övladları kimi böyüyəcək, cəmiyyətdə özünəməxsus yer tutacaq, baba və nənənin arzularının davamçısı olacaqlar.

**Əməllərdə yaşamaq**

İnsan o zaman xoşbəxt sayılar ki, onun əzizləri ona yaxın məsafədə olmadıqda belə ona utanc gətirəcək bir xüsusiyyəti ilə seçilməsin. Ən ümdəsi övladları, həmçinin ailəsinə sonradan daxil olan gəlin və kürəkəni belə intizamında, danışıq tərzi və hərəkətlərində, ətraf mühitdə olarkən kimdənsə çəkinəcək və sıxılacaq halı olmadan ünsiyyət qura, ən əsası öz "yeri"ni belə bilsin. Eyyub Süleymanovun övladları bu seçimdə də yanılmamışlar. Deməli bu ailənin ailə qanunları öz aliliyi ilə də seçilmişdir .

Əfsuslar olsun ki, Eyyub Süleymanov ömrünün 64-cü baharında - 2025-ci ilin mart ayının 26-da dünyasını dəyişdi, mücadilə etsə belə, amansız xəstəlik onun hələ həyata keçirəsi çox arzularını yarımçıq qoydu ...

Əgər bir insan sağlığında özünə "insanlıq abidəsi" yarada bilibsə, bu böyük xoşbəxtlikdir. Hüzr məclisində belə həyatdan köçməsinə heyfsilənərək, onun xeyirxah, dürüst, insanlıq əməllərindən, kiməsə etdiyi hər hansı bir yaxşılığı insanlıq borcu sanma xüsusiyyətindən, yaşadığı zamanın yaşadığı ömrü ilə ən gözəl və əsil insan adına layiq "müdavimi" olması haqda hər kəs söz açırdı. Bu isə ölməzliyə, yaddaşlarda xoş xatirələrlə yaşamağa silinməz izlər deməkdir. Bu gün onun müsbət xüsusiyyətləri, əsil insanlıq xarakteri, ailəçilik nümunəsi həyatda hər kəsə bir örnəkdir. Bu xüsusiyyətlər isə ailəsinin, əzizlərinin yaşamında davam edir və edəcək!

**BİBİXANIM.**

# Ata, evə gəlirəm, ana, qarşıla məni!..

**Fərqlilik**

Bir xanım tanıyırdım, üzügülər, mehriban. Müəllimdir, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur. Məktəb kollektivində bilik və bacarığı, insani xarakteri, məntiqi düşüncə və nikbin duyğuları ilə fərqlənər... Mehriban və qayğıkeşdir. Geyim tərzi də onda sırf azərbaycanlılara məxsus olur, xanımlığı da. Bir sözlə, tipik Azərbaycan xanımı, gənci idi. Ailədə də mehriban və qayğıkeş ömür-gün yoldaşı, gəlin, anadır. Nikbin hissli, müsbət auralı bu xanım övladlarına qarşı hədsiz həssas idi. Onların üzündəki hər kiçik sevinc hissi onun ömrünə zövq verirdi. Həyat yoldaşı ilə birgə halal zəhmətilə övladlarını böyüdürdülər. Övladları orta təhsil aldıqdan sonra təhsillərini davam etdirdilər. Hər iki övladı ailə mühitinin təsiri altında böyüyürdülər. Ona görə də onlar həmyaşıdlarından fərqlənirdilər. İstər uşaqlıq çağlarında, istər məktəbli, istərsə də tələbəlik illərində ailədə və məktəbdə gördükləri və yaşadıqları hər ikisinin gələcəkdə cəmiyyət üçün yetkin insan kimi formalaşmasında müstəsna rol oynayırdı. Onlarla birgə yaşayan baba ailənin sevgisi, hörmət və sayğısı həmişə hədsiz olmuşdur. Babanın timsalında yaşlı nəslin söhbət və xatirələri, keçmişə məhəbbət, tarixi qəhrəmanlığa inam, aldıqları təhsil və daim oxumaq,öyrənmək hissi isə yeni əsrin həyat tərzini mükəmməl öyrənməyə onlarda stimul yaradırdı.

**Kimdir Məhəmməd?**

Məhəmməd Mahir oğlu Qarayev 2001-ci il noyabrın 16-sında Qəbələ şəhərində doğulmuşdur. Orta təhsilini Qəbələ şəhər 4 saylı orta məktəbində almışdır. Təhsilini Azərbaycan İqtisad Universitetində davam etdirmişdir. Ali məktəbi başa vurduqdan sonra əsgəri borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə çağırışa əsasən əsgəri xidmətə başlamışdır. Bu əsgəri ad, qalib bir ölkənin vətəndaşı olaraq Zəfər qazanmış güclü bir ordunun əsgəri olmaq onda fərəh və qürur hissi doğururdu. Əsgəri xidmətə gedəndə də sevinclə getmişdi, valideynləri və əzizləri də onu ürəyisakitliklə, fərəh hissi ilə yola salmışdılar. Düşünmüşdülər ki, bir illik xidmət az bir müddət, göz yumub-açınca gəlib keçəcək. Qoy övladları bu "kişilik" məktəbinin də müdavimi olsun.

Məhəmməd Kəlbəcərdə xidmət edirdi. Xidməti borcunun başa çatmasına az bir vaxt qalmışdı, valideynləri ilə telefon danışığında da tezliklə gələcəyini söyləyərdi. Ancaq... Ancaq gül-çiçəyin açaraq, ətrafa bahar qoxusu yaydığı, təbiətin gözəl anında ailənin bütün arzularını çilik-çilik edən bir xəbər yayıldı - Məhəmməd əsgəri xidmətindən daha tez qayıdırdı "elinə", "evinə"...

12 may 2023-cü ildə saat 18.00 radələrində erməni hərbi birləşmələrinin Basarkeçər rayonunun Zod kəndi istiqamətində yerləşən bölmələri Azərbaycan ordusunun üzbəüz mövqelərini D-30 topları və minaatanlardan atəşə tutmuşdular. Elə gənc Məhəmməd də bu toqquşma zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhadətə qovuşmuşdu. Şən, nikbin xarakterli Məhəmməd evə gedəcəyi günü səbirsizliklə gözləyirdi, ələlxüsus zəng edib atasına deyəcəyi: "- Ata, evə gəlirəm, anama de!.." - sözlərini. Bütün arzuları kimi bu ümdə arzusu da gözlərində "dondu" və ruhu şəhid ruhlarına qarışdı...

**Dəyişkənlik**

Hələ 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsi zamanı körpə qəlbində bu müharibədə döyüşçü olmaq, Polad Həşimov kimi örnək qəhrəmanların intiqamını almaq, ölkəmizin tarixindəki məğlub sözünün silinməsi, qələbə qazanmaq əzmi onun arzu toplumunda idi. Zəfər qazanma xəbəri onu o qədər sevindirmişdi ki... Ancaq Zəfər paradında qalib döyüşçülər sırasında addımlamağın qibtə hissini də keçirmişdi. Təkcə təhsili ilə deyil, igidliyi ilə də ölkənin fərqli vətəndaşı olmaq istəmişdi. Heç kimin - ya özünün, ya da əzizlərinin ağlına belə gəlməzdi ki, müharibədən sonra ölkədə dinc yaşayış, işğaldan təmizlənən torpaqlarımızda quruculuq işləri getdiyi bir zamanda naxələf, faşist ermənilərin təxribatının qurbanı olacaq. Atası Mahirin, anası Könülün, bacısı Şəhlanın, eləcə də bütöv nəslin ürəyinə ağır bir yara vurulacaq, ancaq bütün xalqın yaddaşında qürur və vüqar, igidlik simvoluna çevriləcək Məhəmməd!

Məhəmməd evə gəlirdi, ölkəmizin simvolik "libasına" bürünərək, ruhu isə göylərdən səslənirdi: "- Ata, evə gəlirəm..."

O, Qəbələdə dəfn olundu, həm də böyük izdihamla! Gənc ömrü ilə - böyük ehtiramla və sevgi ilə vidaşlaşdı hər kəs onunla!

O gündən - 13 may 2023-cü il tarixdən etibarən ailənin bütün sevinc və nikbinlik ruhu qeyb oldu... Nə qədər vüqar, qürur hissi olsa da, şəhid baba-nənəsi, ata-anası, bacısı olmağın ağırlığı, acısı bütövlükdə ailənin varlığına, simasına çökdü... Bu - ələlxüsus Könül müəllimin simasında apaydın hiss olunurdu. Şəhid anası titulu onun görkəmində yaşlılıq, mükəddərlik, vüqar, dolğunluq cizgiləri, tarixin ən mükəmməl "Ana" simasını yaratmışdı. Bu isə bütün qəhrəman analarına şamil olan bir görkəmdi, fərqi isə Könül müəllimin simasında xarakterik olmasıdır!

Mahir bəy, Könül xanım, eləcə də bütün Məhəmmədsevərlər! Siz həyata Məhəmmədin gözü ilə baxın, arzu dolu ürəyi ilə yaşayın. Yaşayın ki, onun yarım qalan arzularını həyata keçirə biləsiz, qismən də olsa!

Bahar ömürlü, bahar "ölümlü" şəhidim, məkanın cənnət olsun!

**Afət İSRAYILOVA,**
**"Qəbələ"nin**
**ştatdankənar müxbiri.**